# Bayram günü

*Mus.: Üzeyir Hacıbəyli, söz.: Mir Mehdi Seyidzadə*

**Tempo di marcia**

*Xor üçün tərtib edəni-Rəşid Şəfəq*






Azad ellərimin gənc nəsliyik biz,
Sevinclə doludur körpə qəlbimiz.
Biz azad bülbülük, ölkəmiz gülşən,
Bu bayram günündə gəzirik şən-şən.

Sevirik anamız Azərbaycanı,
Odur qəlbimizin hiss-həyəcanı.
Gündə çiçəklənir Vətən torpağı,
Səadət Günəşi olub bayrağı.